**«Təhlükəli tullantıların sərhədlərarası daşınması Qaydası»nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 iyul tarixli 609 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Təhlükəli tullantıların sərhədlərarası daşınması Qaydası» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 25 iyul 2008-ci il
№ 167

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2008-ci il 25 iyul tarixli 167 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Təhlükəli tullantıların sərhədlərarası daşınması
## QAYDASI

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1 Bu Qayda təhlükəli tullantıların istifadə məqsədi ilə Azərbaycan Respublikasının ərazisinə idxalını, ixracını və tranzit daşınmasını tənzimləyir.

1.2. Təhlükəsiz emalı mümkün olmayan təhlükəli tullantıların tranzit daşınması, basdırılması və zərərsizləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasına gətirilməsi qadağandır.

1.3. Təhlükəli tullantıların sərhədlərarası daşınması Azərbaycan Respublikasının qanunvericiliyində və onun qoşulduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş şərtlərə uyğun olaraq həyata keçirilir.

1.4. Təhlükəli tullantıların Azərbaycan Respublikasının ərazisindən «Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyası»nın (bundan sonra - Bazel Konvensiyası) üzvü olmayan ölkəyə

ixracı (bu ölkə ilə Azərbaycan Respublikası arasında təhlükəli tullantıların sərhədlərarası daşınması barədə müqavilənin imzalanması halları istisna olmaqla) qadağan edilir.

## 2. TƏHLÜKƏLİ TULLANTILARIN SƏRHƏDLƏRARASI DAŞINMASI

2.1. Təhlükəli tullantıların istifadə məqsədi ilə Azərbaycan Respublikasının ərazisinə idxalı, ixracı və tranzit daşınmaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən icazə əsasında həyata keçirilir.

Razılıq verilərkən aşağıdakı meyarlar nəzərə alınır:

təhlükəli tullantıları idxal edən dövlətdə tullantıların ekoloji təhlükəsiz istifadəsi və ya kənarlaşdırılması mümkündürsə;

idxal edən dövlətdə təhlükəli tullantılardan xammal kimi istifadəyə tələb varsa;

təhlükəli tullantıların sərhədlərarası daşınması Bazel Konvensiyasının məqsədlərinə zidd olmayan digər meyarlara cavab verirsə.

2.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə və bu nazirliyin verdiyi icazə əsasında Azərbaycan Respublikasının ərazisinə idxal, ixrac edilən və tranzit daşınan, habelə təhlükəsiz emalı mümkün olmayan, tranzit daşınması, basdırılması və zərərsizləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasına gətirilməsi qadağan olunan təhlükəli tullantıların siyahılarını Azərbaycan Respublikasının qanunvericiliyində və onun qoşulduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş şərtlərə uyğun olaraq hər il dəqiqləşdirərək, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim etməlidir.

2.3. Tullantıların sərhədlərarası daşınmasına icazə almaq üçün təhlükəli tullantıların sərhədlərarası daşınmasını həyata keçirmək niyyətində olan fiziki və hüquqi şəxslər1[*] (bundan sonra - ərizəçi) bu tullantıların daşınmasından 60 gün əvvəl Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidirlər.

Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı;

fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən vəsiqə haqqında məlumat (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı).

Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunmalıdır:

hüquqi şəxslərin dövlət qeydiyyatı barədə hüquqi sənədin (şəhadətnamənin) surəti;

---

1[*] Bu şəxs təhlükəli tullantıların daşıyıcısı, sahibi (mülkiyyətçisi) ola bilər

fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə məşğul olması barədə vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti;

təhlükəli tullantıların sərhədlərarası daşınmasına dair bildiriş;

təhlükəli tullantıların miqdarını, onların daşınma məqsədini və təyinat yerini göstərən sənədlər;

təhlükəli tullantıların pasportunun surəti;

tullantıların sərhədlərarası daşınmasında iştirak edən dövlətlərin müvafiq icazəsi və icazəni verən səlahiyyətli orqanının ünvanı;

daşınmanın müvafiq qanunvericiliyə uyğun həyata keçirilməsi üçün xüsusi avadanlıqların və müvafiq işarələrlə təchiz olunmuş nəqliyyat vasitələrinin olması (nəqliyyat vasitələrinin texniki vəziyyəti, onların nömrəsi, markası, tipi) və təhlükəli tullantıların bu nəqliyyat vasitələrində daşınması ilə bağlı təhlükəsizlik tələblərinə əməl olunması barədə aidiyyəti üzrə razılaşdırılmış məlumat (marşrut, daşınma qrafiki, idxalı və ya Azərbaycan Respublikasının ərazisindən keçməklə, tranzit daşınması zamanı baş verə biləcək qəza hallarının ləğv edilməsinə dair müvafiq qaydada tərtib olunmuş tədbirlər planı) ;

idxal olunan tullantıların emalı (kənarlaş dırılması, basdırılması, yerləşdirilməsi, utilizasiyası) üçün qurğuların, qurğuların mülkiyyətçisinin ünvanı və emal üsullarının, həmçinin təhlükəli tullantıların ətraf mühit üçün təhlükəsiz emalının təsviri;

tullantıların sərhədlərarası daşınması zamanı təhlükəsizliyin (sığorta, girov) təmin olunduğunu təsdiq edən sənədin surəti;

ərizəçi təhlükəli tullantıların sərhədlərarası daşınmasını təşkil edirsə, daşınması nəzərdə tutulan tullantıların sahibi (mülkiyyətçisi) ilə bağlanmış müqavilənin (və ya etibarnamənin) surəti.

**Qeyd.** Notariat qaydasında təsdiq edilmiş sənədlərin surəti onların əsli göstərilməklə təqdim olunmalıdır.

2.4. Ərizəçinin müraciəti və bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş sənədlər Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində xüsusi kitabda qeydə alınmaqla, qəbul edilir və bu barədə 10 gün müddətində ərizəçiyə rəsmi məlumat verilir.

Məlumatda aşağıdakılar göstərilməlidir:

təhlükəli tullantıların sərhədlərarası daşınmasına dair bildirişin alındığı tarix;

qərar qəbul etmək üçün bildirişdə və əlavə olunan sənədlərdə lazımi məlumatların olub-olmaması;

təhlükəli tullantıların xüsusiyyətlərindən asılı olaraq, digər məlumatların tələb edilməsi.

2.5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəçi tərəfindən təqdim olunmuş sənədləri qeydə alındığı gündən təhlil edir. İmtina üçün əsas olmadıqda, təhlükəli tullantıların istifadə məqsədi ilə Azərbaycan Respublikasının ərazisinə idxalına, ixracına və tranzit daşınmasına icazə verilir. Bu

barədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəçiyə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə və tullantıların sərhədlərarası daşınmasında iştirak edən dövlətlərin müvafiq səlahiyyətli orqanlarına daşınma barədə bildiriş göndərir.

Bu bildirişə aşağıdakı sənədlər və məlumatlar əlavə olunmalıdır:

təhlükəli tullantıların istifadə məqsədi ilə Azərbaycan Respublikasının ərazisinə idxalı, ixracı və tranzit daşınması barədə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmış qərarının surəti;

ərizəçinin adı, ünvanı və əlavə məlumatlar;

təhlükəli tullantıların miqdarını, onların daşınma məqsədini və təyinat yerini göstərən sənədlər;

təhlükəli tullantıların pasportunun surəti;

tullantıların sərhədlərarası daşınmasında iştirak edən dövlətlərin müvafiq icazəsi və icazəni verən səlahiyyətli orqanlarının ünvanları;

təhlükəli tullantıların Azərbaycan Respublikasının ərazisində daxil olacağı gömrük məntəqəsinin adı və ünvanı;

digər zəruri məlumatlar.

2.6. Bu Qaydanın 2.1-ci və 2.3-2.5-ci bəndlərində göstərilən əsaslarla təhlükəli tullantıların Azərbaycan Respublikasının ərazisinə idxalına, ixracına və tranzit daşınmasına icazə verilməsindən imtina edildiyi halda, ərizəçiyə imtinanın səbəbləri göstərilməklə, yazılı məlumat verilir və həmin səbəblər aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim olunduqdan sonra onlara 10 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

2.7. Azərbaycan Respublikasının ərazisinə idxalına, ixracına və tranzit daşınmasına icazə verilməsindən aşağıdakı hallarda imtina edilir:

bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;

təqdim edilə n sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı olmadıqda.

2.8. Ərizəçi tərəfindən təqdim edilən məlumatların həqiqətə uyğun olmasını, ərizəçinin, təhlükəli tullantıların kənarlaşdırılmasına cavabdeh şəxsinin texniki imkanlarını müəyyənləşdirmək və daşınmaya nəzarət məqsədi ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müvafiq qanunvericiliyə uyğun olaraq müstəqil və ya qanunvericilikdə nəzərdə tutulmuş digər aidiyyəti orqanlarının mütəxəssislərini cəlb etməklə, araşdırma apara bilər.

2.9. Azərbaycan Respublikasının eyni dövlət sərhədlərinin buraxılış məntəqəsindən təkrar keçməklə, təhlükəli tullantıların sərhədlərarası müntəzəm daşınmasına ehtiyac olarsa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən daşınmanı həyata keçirən eyni bir şəxsə (ərizəçiyə) ümumi bildirişdən istifadə etməklə, daşınmaya bir il müddətinə icazə verilə bilər. Bu icazə aşağıdakı şərtlərlə verilir:

tullantıların sərhədlərarası daşınmasında iştirak edən dövlətlərin eyni dövlət sərhədlərinin buraxılış məntəqəsindən keçirilməsi nəzərdə tutulduqda və bu dövlətlərin yazılı razılığı olduqda;

tullantıların, kənarlaşdırılmaya cavabdeh eyni şəxsə göndərilməsi eyni müqavilə əsasında nəzərdə tutulduqda;

sərhəddən keçirilən hər bir tullantı eyni fiziki və kimyəvi xassələrə malik olduqda.

2.10. Sərhədlərarası daşınma zamanı təhlükəli tullantıların müəyyən edilmiş xüsusiyyətlərə uyğun gəlmədiyi aşkar olunarsa, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən daşınma dayandırıla bilər və bu halda iki gün müddətində daşınmanın dayandırılması səbəbləri göstərilən sənəd Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunmalıdır.

2.11. Təhlükəli tullantıların sərhədlərarası daşınması barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müəyyən olunmuş qaydada məlumat təqdim edilir. Bu məlumatlar əsasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Bazel Konvensiyasının Katibliyinə müvafiq qaydada hesabat təqdim edir.

2.12. Təhlükəli tullantıların sərhədlərarası daşınmasının başa çatması tarixi barədə ərizəçi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyini müvafiq formaya uyğun olaraq xəbərdar edir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həmin xəbərdarlıq əsasında tullantıların daşınmasında iştirak edən dövlətin müvafiq səlahiyyətli orqanlarına bu barədə məlumat verir.

2.13. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təhlükəli tullantıların Azərbaycan Respublikasının ərazisinə idxalının, ixracının və tranzit daşınmasının qanunvericilikdə müəyyən olunmuş qaydada dövlət uçotunu və hesabatlarını aparır.

2.14. Təhlükəli tullantıların sərhədlərarası daşınmasına dair bildiriş və bu daşınmaya verilən icazənin nümunəvi formaları Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tərtib və təsdiq edilir.

## 3. TƏHLÜKƏLİ TULLANTILARIN SƏRHƏDLƏRARASI DAŞINMASINA QOYULAN TƏLƏBLƏR

3.1. Təhlükəli tullantıların sərhədlərarası daşınması xüsusiləşdirilmiş və müvafiq qanunvericiliyin tələblərinə cavab verən avtomobillərlə, dəmiryol, dəniz, çay, hava nəqliyyatı ilə həyata keçirilə bilər.

3.2. Təhlükəli tullantıların sərhədlərarası daşınmasında iştirak edən tərəflər (tullantıların sahibi (mülkiyyətçisi), tullantı daşıyıcısı və tullantıların kənarlaşdırılmasına cavabdeh şəxs) ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərin qarşısını almaqla (və ya minimuma endirməklə) daşınmanı həyata

keçirməlidirlər. Daşınma təhlükəli tullantıların daşınmasına dair qanunvericiliyin tələblərinə riayət etməklə, yerinə yetirilir.

3.3. Azərbaycan Respublikasının ərazisində təhlükəli tullantıların daşınması zamanı baş vermiş qəza nəticəsində tullantıların axması, dağılması, yayılması baş verdikdə, korlanmış ərazilər tullantıların sərhədlərarası daşınmasında iştirak edən tərəflərin hesabına təmizlənərək bərpa edilməlidir.

3.4. Təhlükəli tullantıların sərhədlərarası daşınması zamanı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin və Bazel Konvensiyasının tələblərinin pozulduğu aşkar olunarsa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu tullantıların sərhədlərarası daşınmasına verilən icazə dayandırıla bilər.

Daşınmanın dayandırılması barədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə dərhal məlumat verilir. Bu məlumat əsasında Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən təhlükəli tullantıların sərhədlərarası daşınmasına yol verilməməsi üçün müvafiq tədbirlər görülməli və bu barədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumatlandırılmalıdır.

3.5. Təhlükəli tullantıların daşınması zamanı hər hansı qəza hadisəsi baş verdiyi təqdirdə, daşıyıcı ilə operativ rabitə əlaqəsi yaratmaq imkanı olmalıdır. Baş vermiş qəza və onun nəticələri barədə təhlükəli tullantıları daşıyan şəxs tərəfindən ərizəçiyə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və qanunvericilikdə nəzərdə tutulmuş digər aidiyyəti orqanlara dərhal məlumat verilməlidir.

## 4. TƏHLÜKƏLİ TULLANTILARIN QANUNSUZ SƏRHƏDLƏRARASI DAŞINMASINA GÖRƏ MƏSULİYYƏT

4.1. Azərbaycan Respublikasından təhlükəli tullantıların ixracına tullantılar idxal edilən dövlətin və ya tullantıların tranzit daşınmasında iştirak edən dövlətlərin razılığı alınmadan icazə verilmir.

4.2. Təhlükəli tullantıların sərhədlərarası daşınması aşağıdakı hallarda qanunsuz hesab edilir:

təhlükəli tullantıların sərhədlərarası daşınmasında maraqlı olan dövlətlər tullantıların daşınması barədə xəbərdarlıq edilmədikdə;

təhlükəli tullantıların sərhədlərarası daşınmasında maraqlı olan dövlətlərin tullantıların daşınmasına yazılı şəkildə razılığı alınmadıqda;

təhlükəli tullantıların sərhədlərarası daşınmasında maraqlı olan dövlətlərin razılığının saxtalaşdırılma yolu ilə alınması və ya daşınmaya aid sənədlərdə uyğunsuzluq olduqda;

idxal, ixrac və tranzit daşınmaları zamanı təhlükəli tullantıların bilərəkdən təhlükəli şəkildə kənarlaşdırılması məqsədi güdüldükdə;

müvafiq qanunvericiliyin tələblərinin pozulması aşkar olunduqda.

4.3. Təhlükəli tullantıların sərhədlərarası daşınmasında müvafiq qanunvericiliyin tələblərini pozan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq inzibati, cinayət və mülki-hüquqi məsuliyyət daşıyırlar.

4.4. Təhlükəli tullantıların Azərbaycan Respublikasının ərazisinə qanunsuz idxalı və ya ərazisindən tranzit daşınması aşkar olunduqda, həmin tullantılar daşınmada iştirak edən tərəflərin hesabına təhlükəli tullantıların məxsus olduğu dövlətə geri qaytarılır və ya Bazel Konvensiyasında nəzərdə tutulmuş qaydada 30 gün müddətində sanitar-ekoloji baxımından təhlükəsiz üsullarla utilizasiya olunur.